

**Yusifov Münasib Mübariz oğlu**

Münasib Mübariz oğlu Yusifov 2000-ci il mayın 14-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub. 2006-2017-ci illərdə M.Məmmədov adına Yuxarı Öysüzlü kənd tam orta məktəbində təhsil alıb.

Münasib Yusifov 2018-ci ildə müddətli həqiqi xidmətə çağırılıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib. 2020-ci ilin iyun ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Münasib Yusifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı, Laçın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub. 19 noyabr 2020-ci il tarixində Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Yusifov Münasib Mübariz oğlu "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.